**AZƏRBAYCAN RESPUBLİKASININ**
**QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

# ƏMR

№ ü/063

**Bakı şəhəri** "04" iyun 2019 il

**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin bir sıra əməkdaşlarının mükafatlandırılmaları haqqında**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi fəaliyyət göstərdiyi bir il ərzində qida təhlükəsizliyi sahəsində şəffaflığın təmin edilməsi, müasir laboratoriya infrastrukturunun yaradılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın qurulması və əhalini narahat edən əsas qida təhlükəsizliyi problemlərinin həlli istiqamətində geniş tədbirlər həyata keçirmişdir. Qeyd edilən işlərin həyata keçirilməsində Agentliyin bir sıra əməkdaşları fərqlənmiş və onların qida təhlükəsizliyi sisteminin qurulmasında xüsusi rolu olmuşdur.

Bununla əlaqədar, Agentlikdə çalışan dövlət qulluqçularının və dövlət qulluqçusu olmayan işçilərin müvafiq olaraq Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli, 774 nömrəli fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamə"nin 7-ci hissəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 aprel tarixli 181 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 4.1-2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən göstərilən xidmətlərə (hüquqi hərəkətlərə) görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ödənilən dövlət rüsumlarından toplanan və həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın 2.8-ci bəndinə əsasən fərdi qaydada mükafatlandırılması məqsədəuyğun hesab edilir.

7 iyun tarixinin Beynəlxalq Qida Təhlükəsizliyi Günü olduğunu nəzərə alaraq, bu əlamətdar gün ərəfəsində Agentliyin fəaliyyətinin səmərəli təşkil edilməsində xüsusi xidmətlər göstərmiş bir qrup əməkdaşın əməyinin qiymətləndirilməsi məqsədilə və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında" Əsasnamənin 5.5.8-ci və 5.5.10-cu yarımbəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Səmərəli fəaliyyətləri ilə Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə verdikləri töhfəyə görə aşağıda adları qeyd olunan əməkdaşlar Agentlik sədrinin Fəxri Fərmanı və 300 (üç yüz) AZN pul mükafatı ilə təltif edilsinlər: